**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**YEGANƏ ZİRƏDDİN QIZI BAYRAMLI**

# AZƏRBAYCAN SİMLİ MUSİQİ ALƏTLƏRİ MİLLİ MƏDƏNİ ƏNƏNƏNİN TƏRKİB HİSSƏSİ KİMİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasında
yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *sənətşünaslıq doktoru*
**Sevil Tağı qızı Fərhadova**

**Rəsmi opponentlər:** *sənətşünaslıq doktoru, professor*
**Cəmilə İsmayıl qızı Həsənova**

*sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*
**Vaqif Əmir oğlu Əbdülqasımov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqişünaslıq" kafedrası

Müdafiə _17____iyun___________2014-cü ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat _______may_______2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru: **H.V.Məmmədova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Müasir dövrümüzdə ənənə və novatorluq problemi mədəniyyətin inkişafı prosesində milli özünəməxsusluğun qorunması və bu iki tərəfin qarşılıqlı təsiri problemi kimi çox ciddi rol oynayır. Bu mövqedən irəli gələrək ənənə problemi XX əsrdə sənətşünasların, kulturoloqların və sosioloqların müzakirə predmetinə çevrilərək milli mədəni eyniyyət fenomeni kimi aktuallıq kəsb edir. Bu fenomen alimləri və sənət adamlarını xalq instrumental sənətinin müasirləşməsinin tərəfdarları və əleyhdarları olaraq iki qismə bölmüşdür. Birincilər yeniləşmənin vacibliyini dəyişən sosial mədəni reallıqları, ikincilər isə milli mədəni özünəməxsusluğun qorunmasının təminatçısı olaraq ənənənin toxunulmazlığını əsas gətirirlər. Onların arasındakı bu mübahisəni yalnız özündə sənətşünaslıq, kulturoloji və sosioloji aspektləri birləşdirən fənlərarası tədqiqatların köməyi ilə həll etmək olar.

Təsadüfi deyil ki, bu məsələ həm də dövlətimizin qarşısında duran hədəflərdən ən vacibidir. Cari vaxtda Azərbaycanın çoxşaxəli musiqi sənətinin özünəməxsusluğunun, klassik ənənələrinin qorunub saxlanılması yolunda aparılan geniş tədbirlər sistemi, dövlətimizin müdrik və uzaqgörən milli mədəni siyasətinin parlaq göstəricisidir. Belə ki, ulu öndərimiz H. Əliyev ənənəni öyrənmək və onu gələcək nəsillərə ötürmək məqsədilə "Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət - ənənələrini yaşatmalıyıq" söyləmişdir.[1] Bu siyasət nəticəsində son illərdə xalqımızın milli və mənəvi dəyəri olan muğam sənətinin, aşıq sənətinin, tar simli musiqi alətinin YUNESKO tərəfindən "Bəşəriyyətin qeyri – maddi mədəni irsinin şah əsəri" elan edilməsi, bu unikal sənət nümunələrinin qorunması və təbliği məqsədilə görülən əhəmiyyətli işlərdəndir.

Müasir dövrün aktual problemləri sırasında Azərbaycan simli musiqi alətlərinin ənənə kontekstində dərki vacib amillərdən hesab oluna bilər.

Məlum olduğu kimi, ayrı-ayrı dövrlərdə musiqişünaslar tərəfindən qeyd edilən mövzu araşdırılmış, tədqiqat işlərində hər bir müəllif öz mövqeyindən çıxış edərək, mövzuya müxtəlif səpkidən yanaşmışdır. Lakin, mövzunun dəfələrlə işlənilməsinə baxmayaraq, müəyyən suallar hələ də işıqlandırılmamış qalır. Bu mənada, Azərbaycan simli musiqi alətlərinin mahiyyətinin yenidən dərki, zamanın tələbinə uyğun olaraq mövcud olan

[1] Zaman qəzeti 04 iyul 2013

sənətin parametrlərinin ənənə sistemi çərçivəsində, kompleks şəkildə araşdırılması aktual məsələlərdəndir.

Beləliklə hazırkı tədqiqat işində indiki zamanda mövcud olan yeni elmi yanaşmaları nəzərə alaraq, ənənənin mahiyyətini mümkün qədər öyrənərək və Şərq dünyagörüşü prinsipinə əsaslanaraq, milli musiqi alət mədəniyyətinin özünəməxsusluğunu şərtləndirən tərəfləri işıqlandırmağa cəhd göstərmişik.

**Mövzunun işlənmə dərəcəsi:** Simli musiqi alət mədəniyyəti, onun etimologiyası, bərpası, miqrasiya və transformasiya məsələləri haqqında bir çox tədqiqatçılar bu kimi məsələləri araşdıraraq dəyərli məlumatları aşkarlamışlar. S.Abdullayevanın[2], M.Kərimovun[3], O.Quliyevin[4], V.Əbdülqasımovun[5], Ə.Rəhmətovun[6], F.Əzimlinin[7], A.Məmmədovun[8], A.Nəcəfzadənin[9], Y.Seyidovanın[10], T.Əliyevanın[11] və bir çox başqa tədqiqatçılarımızın alətşünaslıq haqqında, onun tarixi və müxtəlif elmi – nəzəri problemlərinə həsr edilmiş dəyərli əsərləri təqdirə layiqdir. Mövcud sahədə xüsusi ilə bu məsələyə ətraflı yanaşan, alətşünaslıq sahəsində ilk aparıcı və mükəmməl işlərdən biri məhz S.Abdullayevanın tədqiqat işi ol-

---

[2] Abdullayeva S.A., Əlsəgərov S. Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə. Bakı, Maarif, 1996.
Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri. Musiqişünaslıq və orqanoloji tədqiqat. Bakı, Adiloğlu, 2002.
Abdullayeva S.A. Azərbaycan folklorunda çalğı alətləri. Bakı, Adiloğlu, 2007
Abdullayeva S.A. Azərbaycan musiqisi və təsviri sənət. Bakı, CBS polygraphic production, 2010.
[3]Kərimov M.T. Azərbaycanın qədim simli çalğı alətləri. Namizəd. diss. Bakı, 1995.
Kərim M.T. Azərbaycan musiqi alətləri. Kitab-albom. Bakı, Yeni nəsil, 2003
Kərim M.T. Orta əsr Azərbaycan musiqi alətləri (tarixi orqanoloji tədqiqat), Sənət. dok., diss. Bakı, 2009
[4] Quliyev. O. Azərbaycan xalq çalğı alətləri orkestri. Bakı, İşıq, 1980
[5] Əbdülqasımov V. Azərbaycan tarı. Bakı, İşıq, 1989
[6] Rəhmətov Ə. Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri. Bakı, İşıq, 1980
[7] Əzimli F.N. Azərbaycan xalq musiqisinin qısa lüğəti II nəşri. Bakı, R.N.Novruz-94, 2009
[8] Məmmədov A.K. Dünya musiqi mədəniyyəti kontekstində Azərbaycan simli alətlərinin yaranma, inkişaf və yayılma məsələləri. Namizəd. diss. Bakı, 2001
[9] Nəcəfzadə A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı, MBM, 2003
Nəcəfzadə A.İ. Çalğı alətlərimiz. Bakı, MBM, 2004
Nəcəfzadə A.İ. Azərbaycan idiofonlu çalğı alətləri (orqanoloji-tarixi tədqiqat). Bakı, MBM, 2010.
[10] Seyidova Y.Ş. Azərbaycan bəstəkarlarının əsərlərində kamançanın istifadə və ifa xüsusiyyətləri. Sənət. üz. fəl. dok., diss. Bakı, 2008.
[11] Əliyeva T. M. Azərbaycan qanunu yatıq simli çalğı alətləri sırasında. Sənət. üz. fəl. dok. diss. Bakı, 2011.

muşdur. O, orta əsrlər dövründə Azərbaycanda mövcud olan simli musiqi alətlərin quruluşunu, strukturunu, tarixini araşdırmış, eyni zamanda "Azərbaycan xalq çalğı alətləri", "Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə" (S.Ələsgərovla birgə), "Azərbaycan musiqisi və təsviri sənət", bir çox musiqi alətlərimiz haqqında ayrı-ayrı səpkili mövzularda monoqrafiyalar nəşr etdirmişdir. Müəllif, tamamilə haqlı olaraq, Şərq dünyasından, Qədim türk təfəkküründən, ümumiyyətlə, ümummüsəlman kontekstindən irəli gələn bir çox mənbələrə toxunmuş və çalğı alətlərinin spesefik xüsusiyyətlərini, xüsusən də onun ifa imkanlarını, prinsiplərini aşkara çıxarmışdır.

Tədqiqatçı M. Kərimov isə Azərbaycan çalğı alətlərinin bərpası sahəsində səmərəli işlər görmüşdür. O, "Orta əsrlər dövründə mövcud olan simli musiqi alətləri haqqında əldə etdiyi biliklərə dərinləşərək, bu alətlərin düzəldilməsində istifadə olunan materiallar, onların bərpası, rekonstruksiyası haqqında araşdırmalar aparmışdır. Nəticədə, musiqişünas alim həmin alətləri bərpa edib, təkmilləşdirərək bu gün də səmərəli qaydada geniş konsert salonlarında səslənməsinə nail olmuşdur. Qeyd etmək lazımdır ki, M. Kərimov həmin çalğı alətlərindən "Qədim musiqi alətləri" ansamblını yaradaraq, ənənəvi musiqimizi bu gün də yaşadır. Bu da Azərbaycan xalqının ruhunun estetik tərbiyyəsində mühüm rol oynayır. Bu tədqiqat işləri içərisində diqqəti cəlb edən A. Məmmədovun "Dünya musiqi mədəniyyəti kontekstində Azərbaycan simli alətlərinin yaranma, inkişaf və yayılma məsələləri" adlı namizədlik dissertasiyasıdır. Müəllif müasir dövrümüzdə Azərbaycan simli musiqi alətlərinin dünya musiqi mədəniyyəti kontekstində yaranma və yayılma məsələlərini işıqlandıraraq, bu alətlərin miqrasiya və transformasiya yollarını araşdırmışdır.

Mövcud olan alimlərin arasında elə tədqiqatçılar da vardır ki, onlar öz araşdırmalarını xüsusilə, bir simli musiqi alətə həsr etmişlər. Onlar bu alətin dərin təhlilini verərək onun ifa imkanlarını, konstruksiyasını daha qabarıq şəkildə əks etdirərək tədqiqat işi aparmışlar. Belə alimlərin cərgəsində biz tanınmış sənətşünas, tarzən V.Əbdülqasımovu xüsusilə qeyd edə bilərik. O, öz elmi araşdırmasında Orta əsrlər dövründə "tar" simli mizrablı musiqi alətinin mövcudluğu haqqında, bu alətin yaranması, keçmişi, bu günü, strukturu, quruluşu haqqında daha dolğun və ətraflı məlumat vermiş, bu musiqi alətinin müasir dövrümüzdə də öz rəngarəngliyini qoruyub saxladığını xüsusi ilə vurğulamışdır. Mənbələrlə tanışlıq zamanı müşahidə edirik ki, instrumental musiqiyə aid xüsusi tədqiqat işi həsr edən müəlliflər az deyil. İnstrumental musiqi haqqında ətraflı araşdırmalar tək Azər-

baycan musiqişünaslarının tədqiqatlarında deyil, eləcə də dünya musiqişünaslarının araşdırmalarında da öz əksini tapmışdır. Belə tədqiqatçılardan biz xüsusilə İ.V.Matsiyevskini, K.Zaksı, T.S.Vızqonu, A.Moduru və başqalarını misal göstərə bilərik. Bütün bunlara baxmayaraq, tədqiqatçılarımız öz dəyərli əsərlərində bu problemə qismən yanaşaraq, simli musiqi alətlərimizə milli mədəni ənənənin tərkib hissəsi kimi, sistem çərçivəsində, kompleks şəkildə baxmamışlar.

Bu məqsədlə biz tədqiqat işimizdə simli musiqi alətlərini milli mədəni ənənənin tərkib hissəsi kimi, kompleks şəkildə öyrənərək və Şərq idrak paradiqmasına söykənərək, ilk dəfə ənənə sistemi çərçivəsində aydınlıq gətirməyə cəhd göstərmişik.

**Tədqiqatın elmi yeniliyi:** Hazırkı araşdırmanın yeniliyi ondadır ki, ilk dəfə olaraq musiqi alətşünaslıq mədəniyyəti ənənə kontekstində, ruhi idrak sisteminin mahiyyətini dərk edilməsi əsasında öyrənilir. Bu da musiqinin iki statusdan, substansiya və incəsənət sahəsi kimi öyrənilməsinə zəmin yaradır. Təfəkkür prosesinin dramaturgiyasından əldə edilən konseptual mənalar əsasında qurulan sistem tədqiqat işini üç mərhələdə öyrənilməsinə zəmin yaradır. Bu baxımdan birinci mərhələdə universal mahiyyət kəsb edən daxili preses qabardılaraq, musiqi elm sahəsi kimi öyrənilir. Bu konseptual mənaların dərki ahəngdarlıq qanunu əsasında qurulan musiqi və xüsusən də öyrəndiyimiz simli musiqi alət mədəniyyətinin təməlini qoyur. Sonrakı mərhələdə isə inkişaf artdıqca zahiri tərəf üstünlük əldə edərək universal olan simli musiqi alətləri Şərq, etnik, millilik statusu nöqteyi-nəzərindən izah edilir. Birincı mərhələdə özünü konseptual həndəsi işarələr kimi təzahür edən simli musiqi alətlərinin ekvivalentlərini sonrakı mərhələdə poeziyada, miniatür illüstrasiyalarında, xalça ornamentlərdə səslərlə canlandırılan mətnlər kimi izah edirik. Müasirliyə doğru irəliləyən simli musiqi alətlərin inkişaf mühiti solo, ansambl və orkestrdə izlənilir. Musiqi alət mədəniyyəti və xüsusən öyrənilən simli musiqi alətlərinin inkişaf yolu ilk dəfə Şərq idrak prinsipi baxımından tədqiq edilərək bütöv mənzərəni yaradır. Nəticədə simli musiqi alətləri elm sahəsi kimi, bədii ənənənin tərkib hissəsi kimi, incəsənət sahəsinin tərkib hissəsi kimi öyrənilərək izah olunur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi Azərbaycan simli musiqi alətlərinin milli mədəni ənənə kontekstində araşdırılmasıdır. Qoyulan məqsədə nail olmaq üçün, ənənəni idrak sistemi kimi dərk edərək, onun tərkib hissəsi olan simli musiqi alət mədəniyyətinin dərindən işıqlandırılması nəzərdə tutulur.

Təqdim olunan dissertasiya işində məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

1. Şərq dünyagörüşünü şərtləndirən ruhi dərketmənin özünəməxsusluğunu öyrənərək, Azərbaycan simli musiqi alətlərinin konstruktiv məsələlərlə yanaşı, ontoloji aspektlərini araşdırmaq;

2. Ənənənin mənəvi özəyini təşkil edən ayin mərasimlərində səslənən və ruhi dərketməyə xidmət edən simli musiqi alətlərini izah etmək;

3. Mədəni irsin iki qolu muğam və ozan-aşıq ənənəsində Azərbaycan simli musiqi alətlərinin özünəməxsusluğunu tədqiq edib, onların ifadə xüsusiyyətlərini mənəvi idrak sisteminin əsasında işıqlandırmaq;

4. Mənəvi dərketmənin konseptual və sinkretik təbiətini nəzərə alaraq, onları Azərbaycan simli musiqi alətlərinin quruluşunda izləmək;

5. Konseptual işarə kimi müəyyən edilən Azərbaycan simli musiqi alətlərinin ekvivalentlərini sözün ahəngində, boyalarda, ornamentlərdə səslərlə canlandırılan mənalarını izah etmək;

6. Azərbaycan simli musiqi alətlərinin formalaşmasında tembr spektri, dinamika və s. tərəfləri ontoloji baxımdan öyrənmək;

7. Ənənəvi simli musiqi alətlərini universallıq və millilik rakursunda tədqiq etmək;

8. Azərbaycan simli musiqi alətlərinin inkişaf mühitini: solo, ansambl və orkestrdə izləmək kimi problemləri işıqlandırmaq qarşıya məqsəd qoyulub.

**Tədqiqatın metodu və metodoloji əsasları:**

Dissertasiya işi Şərq dünyagörüşü ilə səsləşən ikinin təki, metodologiyasına əsaslanır. Xatırladaq ki, bu zərdüştlükdə xeyir və şər, sonrakı dövrlərdə konseptual məna daşıyan in-yan, bizim mədəniyyətimizə aid olan batin-zahir idrak düsturu ilə səsləşir, eyni zamanda mövcud olan şüur konsepsiyası əsasında həyata keçirilir. Müasir tədqiqatlarda bu metodologiyalar önəmli görünür. Musiqinin iki statusdan – substansiya və incəsənət sahəsi kimi, (B. Asafev, A.F. Losev, V.V. Meduşevski) öyrənilməsi, tədqiqat işinin seçilmiş metodologiyaya istinad etməsi, alətşünaslıq mədəniyyətinin ənənə kontekstində işıqlandırılmasına şərait yaradır.

**Tədqiqatın predmeti:** Alətşünaslıq mədəniyyətinin irs kontekstində öyrənilməsidir.

**Tədqiqatın obyekti:** Azərbaycan simli musiqi alətləri tədqiqatın obyekti kimi seçilmişdir.

**Dissertasiya işinin nəzəri-təcrübi əhəmiyyəti:** Tədqiqat işinin metodologiyası Azərbaycan simli musiqi alətlərinin öyrənilməsində kon-

struktiv həm də ontoloji tərəfləri nəzərə alaraq, onun mövcud olan xüsusiyyətlərini izah edərək, gələcəkdə ənənə çərçivəsində bərpasına, həmçinin, varislik əsasında inkişaf etdirməsinə zəmin yaradır. Elmi işin tədqiqi mövzu ilə bağlı olan geniş problemlərin araşdırılmasına əyani vəsait kimi köməklik göstərə bilər. Eyni zamanda, görünən elmi işin əsasında metodik vəsaitlər, dərsliklər yazılması mümkündür. Tədqiqat işinin əsas müddəaları və nəticələrindən Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında, Respublikamızın musiqi kolleclərində «Azərbaycan musiqi tarixi», «Azərbaycan xalq musiqi yaradıcılığı» fənlərinin tədrisində ədəbiyyat kimi istifadə oluna bilər. Fikrimizcə tədqiqatda toplanmış informasiya qədim tarixə malik milli mədəniyyətimiz, xüsusilə də alətşünalıq mədəniyyətimizin fənlərarası öyrənməyə çalışan hər bir şəxs üçün yararlıdır.

Tədqiqat işinin, düşündüyümüzə görə önəmli cəhətlərindən biri də odur ki, belə bir elmi əsərin yaradılması ənənənin bərpasına yönələrək, məhz alətşünaslıq mədəniyyətinin inkişafına təkan verə bilər.

**İşin aprobasiyası:** "Azərbaycan simli musiqi alətləri milli mədəni ənənənin tərkib hissəsi" adlı dissertasiya işi Azərbaycan Milli Konservatoriyası "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında aparıcı mütəxəssislərin iştirakı ilə keçirilmiş geniş iclasda müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur. Tədqiqatın ayrı-ayrı müddəa və nəticələri Azərbaycanda, eləcə də Türkiyədə müxtəlif elmi jurnal və toplularda çap olunmuş bir sıra məqalələrdə, həmçinin beynəlxalq konfrans və simpoziumlardakı çıxışlarda öz əksini tapmışdır.

Dissertasiya işinin müxtəlif məqamları bu istiqamətdə yazılmış bir sıra məqalələrdə işıqlandırılmışdır.

**Dissertasiyanın strukturu:** Qoyulan məsələlər işin strukturunu müəyyən etmişdir. Dissertasiya işi giriş, 3 fəsil, yarımbölmələr, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılaraq, tədqiqatın elmi işlənməsi, elmi yeniliyi şərh edilir, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası göstərilərək, təcrübi əhəmiyyəti qeyd olunur.

Dissertasiyanın **I fəsli - "Ənənə Azərbaycan mədəni irsinin bünövrəsi kimi"** adlanır və dörd yarımbölmədən ibarətdir.

**1.1. "Ənənə şərq dünyagörüşü nöqteyi-nəzərindən"** adlanır. Çağdaş dövrümüzdə ənənə və müasirlik mövzusu zamanın tələbi ilə uzlaşan, eyni zamanda, vacib mahiyyət kəsb edən məsələdir. Bu baxımdan, keçmiş dövrün universal mənalarının dərk edilməsinə xidmət edən ənənə, müasirliklə keçmişin arasında bağ rolunu oynayır. Həmin bağların zəifləməsi və gələcəkdə, hətta qırılması ehtimalı mövcud olan qloballaşma dövründə milli simanın itməsi təhlükəsini yarada bilər. Bu isə sonu görünməyən hadisələrin baş verməsi ilə nəticələnər. Fikrimizcə mədəniyyətin ayrı-ayrı sahələrə parçalanaraq tədqiq edilməsi bütöv mənzərənin yaranmasına mane olar, eləcə də ahəngdarlıq qanunun nizamının pozulması ilə şərtlənər. Belə ki, sözün geniş mənasında mədəniyyət cəmiyyətdə etnik vərəsəliyi təmin edir, həmçinin ahəngdarlıq qanunu çərçivəsində nizam yaradır.

Yaranmış problemin başlıca səbəbi ondadır ki, musiqişünaslıq elmi, keçmiş əsrdə və indiki zamanda da əksər hallarda musiqi ənənəsini incəsənət sahəsi kimi tək avropasentrist mövqedən öyrənib və öyrənməkdədir. Bu baxımdan, musiqi ənənəsinin ayrı-ayrı sahələrə parçalanaraq tədqiq edilməsi bütöv mənzərənin yaranmasına, eləcə də ənənənin dərinliklərə varmaq zəruriliyini həyata keçirməyə maneçilik törədir.

Ənənə vahid idrak prinsipi əsasında qurulan sistem olaraq sinkretik dil vasitəsidir ki, bu idrak üsulunun özünəməxsusluğu erkən insan cəmiyyətinin dünyagörüşünün formalaşmasında həlledici rol oynayaraq, bilavasitə onun şəxsiyyət kimi inkişafında vacib amillərdən hesab olunur. Mövcud olan elmi ehtimallara əsasən, erkən insanlar dünyanı dərketmə prinsipi əsasında qavramışlar. Eyni zamanda, ənənə təşəkkül dairəsi ətrafında dövrə vurmaqla, fikrin sistem əsasında dərk olunmasını ifadə edərək, bilavasitə onun ötürülməsi, yayılması, inkişaf etdirilməsi kimi qavranılır. Burada əsas prinsip kimi təşəkkül prosesinə baxılır. Məhz ənənə - sistem çərçivəsində, vahid bir prinsip əsasında qurularaq, yaradıcılıq prosesinə təkan verən "hal-əhval" məqamlarını yaşamaqla, dairə ətrafında dövrə vuraraq biliyi dərk edib əldə etməklə, onun ötürülməsini təmin edən bir vasitədir. Qeyd edilən mövqedən irəli gələrək yaranmış problemin aradan qaldırılması üçün ənənənin mahiyyətini aşkarlamaq, eyni zamanda, onun mövcud olmasını şərtləndirən amilləri tədqiq etmək və varislik əsasında inkişafına nail olmaq vacib amillərdən hesab olunur.

Ənənənin vacibliyini şərtləndirən amillərdən biri də onun Şərq dünyagörüşü prinsipinə əsaslanmasıdır. Belə ki, Şərq idrak prinsipi ruhi dərketməyə xidmət edən, eləcə də canlı seqmentləri özündə ehtiva edən

dünyagörüşü paradiqmasıdır. Bu mövqedən irəli gələrək Şərq dünyagörüşünün dərketmə prinsipi olan ənənə vahid sistem, təşəkkül prosesi əsasında qurulan bilik olaraq, bizi etnik qrup kimi formalaşdıran faktordur. Eyni zamanda, ənənə, insan cəmiyyətinin inkişafında mühüm rol oynayaraq, dünyagörüşünün formalaşmasında təməl funksiyasını daşıyır.

Şərq mədəniyyəti daim zəka və biliyin mənbəyi hesab olunaraq, özü-özünü dərk etməyə, daxili etiqad zənginliyinə malik olub, intuitivizmə və irrasionalizmə istiqamətləndirən bir bilik sahəsi olmuşdur. Bu mədəniyyətin fenomenal sabitliyinin dərinliyi və daxili zənginliyi məhz təşəkkül prosesindən ibarətdir. Eyni zamanda, bu mədəniyyətdə təbiətə çox həssas münasibət formalaşmışdır: daxili təfəkkür tərzi, ruhi dərketmə fikri bunun təsdiqidir. Bu baxımdan Azərbaycan simli musiqi alətlərinin ənənə kontekstində dərki yaradıcılıqda "nurlanma" fenomeni, eləcə də dərketmə məsələlərinin öyrənilməsində əhəmiyyətli mövqe daşıyır.

Ümumbəşəri mədəniyyətin universal dili olan simli musiqi alətlər əvvəldən professional alətlər hesab olunurdu. Bu baxımdan, demək olar ki, simli musiqi alətləri universal və professional sahəni özündə ehtiva edən bilik sahəsi olmuşdur. Daxili prosesə qovuşdurmaqla informasiyanın və ya biliyin əldə edilməsində və eləcə də, ötürülməsində simli musiqi alətləri cihaz funksiyasını daşıyırdı. İdrak prinsipi vasitəsilə yeddi (yeddi səs ilə bərabərləşən) ruhi pillələri keçərək, və o səs sırasının boyalarını "hal – əhvalla" yaşayaraq prosesə qovuşmaq, eyni zamanda dairə ətrafında dövrə vurmaqla mənaların dərkində ibtidai insanın özü alət funksiyasını icra edirdi.

Şərq mədəniyyətinin xüsusi cəhətlərindən biri də odur ki, onda ənənəvi dünyagörüşü, həmçinin, Şərq mentallığı qorunaraq bu günümüzə qədər gəlib çatmışdır. Mövcud məsələyə Avropa rasional təfəkkür tərzindən yanaşırdısa, Şərq, əksinə irrasional, idrak prinsipinə əsaslanaraq, daxili aləmlə bağlı olan ruhi dərketməyə əsaslanırdı. Bu baxımdan ümumbəşəri mədəniyyətin başlanğıcından eyni kökdən qaynaqlanan Qərb və Şərq mədəniyyəti əvvəldən tarazlıq əldə edib bərabər şəkildə inkişaf etsə də, sonradan bu istiqamət parçalanmiş və Qərb mövqeyi, yəni, zahiri tərəf (rasionallıq) üstünlük əldə etmişdir. Bu mövqedən irəli gələrək tarixi zaman çərçivəsində, Qərb – Avropa mədəniyyətinin sonrakı dövrlərdə musiqi məhz incəsənət növü kimi, yəni, zamanında əsas göstəricilər kimi musiqi dramaturgiyasının sujet vasitəsilə aşkarlanması və konstruktiv parametrləri əsas gətirilərək öyrənilmişdir. Şərq isə, əksinə, inkişaf prosesini üstün tutaraq, idrak prosesinin dramaturgiyasına önəm vermişdir.

Bu baxımdan, biz, Şərqin dünyagörüşünü, idrak prinsipini nəzərə alaraq eyni göstəricilərə başqa nöqeteyi-nəzərdən baxmağı zəruri bilirik. Məsələyə sujet tərəfdən baxarkən kiçik bir mənzərəni, inkişaf prosesi sayəsində isə bütöv, tam mənzərəni müşahidə etmək olar. Musiqi ahəngdarlığı isə inkişaf prosesi ilə bağlıdır.

Məhz bu səbəbdən də, Azərbaycan simli musiqi aləti mədəniyyətinə yeni rakursdan – Şərq dünyagörüşündən çıxış edən irrasional təfəkkürdən, dərketmə prinsipi nöqteyi-nəzərindən baxmağa şərait yaranır. Düşünürük ki, məsələyə Şərq dünyagörüşü prinsipini nəzərə alaraq baxılsa, simli musiqi alət mədəniyyətində yaranan bir sıra problemlərin həlli mümkün olar. Eyni zamanda, mövcud olan tədqiqat işi ənənə və varislik sisteminin bərpasına yönələrək bütöv mənzərənin yaranmasına şərait yaradacaq.

Ruhi idrak sistemi daxili aləmlə, "hal - əhval" düşüncəsi ilə, ruhi proseslə bağlı olan idrak paradiqmasıdır. Bu idrak sistemi ilə bağlı olan həndəsi işarələr (kamança - I, O; qanun ▷; nüzhə □) və rəqəmlər (simlərin sayında 4, 8, 9, 11 və s. ) özünü alətin quruluşunda (tar - ∞ )da göstərir. Eyni zamanda, bu rəqəmlər musiqinin lad quruluşunda da kvarta – kvinta nisbətində, həmçinin, həndəsi işarələrin əyani görünən cihazlarıdır.

Musiqinin elm sahəsi kimi öyrənilməsi mütləq substansiya və bədii təfəkkürlə zamanın çağırışına əsaslanır. Ümumbəşəri mədəniyyətin başlanğıcından bədii, xüsusi dil olmayıb, yalnız universal musiqi dili mövcud idi. Bu baxımdan musiqi substansional məna kəsb edən proto dil ünsürü olaraq, yeganə əlaqə, ünsiyyət vasitəsi, elm sahəsi kimi mövcud olub. Qeyd olunan mövqedən irəli gələrək bilik sahəsi kimi mövcud olan musiqi, ahəngdarlıq yaradan, nizama salan universal qanun kimi, biliyi rəqəmlər - həndəsi işarələr vasitəsilə qurulan əyani cihazlarla, yəni alətlərlə təzahür etmişdir. O özünü həm elmdə, həm mətnlərin quruluşunda, eyni zamanda ornamentlərdə, səslərdə və digər sahələrdə təzahür edir. Bu baxımdan ənənənin mənəvi özəyi olan ruhi idrak sisteminin inkişaf vektorlarının aşkarlanması musiqi alətlərini universal sistem kimi dərk etməyə və başqa mövqedən işıqlandırmağa zəmin yaradır.

**1.2. "Ənənənin mənəvi özəyi – ruhi idrak sistemi və onun inkişaf vektorları"** tədqiq edilir. Ruhi idrak sistemin ayin vektoru – Sinkretik dilin ünsürü olan musiqinin erkən izləri ayinlərdə və mərasimlərində, kütləvi dairəvi ritual hadisələrində müşahidə edilirdi. Hələ erkən dövrlər-

dən insanlar həyat üçün bu və ya digər dərəcəli vacib olan hadisələri ayin çərçivəsində reallaşdırırdı. Bu mərasimlərdə istifadə edilən simli musiqi alətləri konseptual məna kəsb edən işarələrlə xüsusi hal-əhvalla assosiativ düşüncə yaradırdı.

Ayin və mərasimlərdə mövcud olan və konseptual məna kəsb edən səs, rəng, dad, musiqi alətləri və s. xarakterik hərəkətlərlə yaddaşda qalaraq, müəyyən "hal-əhvalın" yaranmasını şərtləndirən amillərdən hesab edilir. Bu baxımdan da yaz fəslinin ahəngdar harmoniyasının saz simli musiqi alətində səslənməsi, eyni zamanda, zorxana tamaşalarında tənbur simli musiqi alətinin səsinin "hal-əhval" yaratması ideyanın həyata keçirilməsi üçün simli musiqi alətlərin mükəmməlliyinin təzahürüdür.

Bütün qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, həqiqətən də ayin və mərasimlərdə fikirlərin "nurlanma" anına ucaldan və mənaların dərkinə xidmət edən simli musiqi alətləri substansional məna kəsb edir.

Ruhi idrak sisteminin ezoterik (elmi) vektoru musiqi elmi daxili təfəkkür, ruhi dünya ilə bağlı olduğundan ezoterik biliyə əsaslanır. Bu elmi dərk etmək üçün, o biliyi əldə etmək üçün, xüsusi yardıcılıq prosesi keçməklə ruhən ucalmaq üçün ifaçıdan müəyyən dərəcədə fiziki və mənəvi paklıq tələb olunur. Bu nöqteyi-nəzərdən də musiqi insanı maarifləndirərək, mənəvi kamilliyə ucaldan substansional məna kəsb edən bir elm sahəsidir.

Biliyin əldə edilməsini şərtləndirən, eyni zamanda təfəkkür prosesini idarə edən ritm ton – (burada ton, fikir spektoru kimi dərk edilir, yüksəkliyi müəyyən edilmiş ton kimi yox) dairə əsasında yaranan biliyin dərk edilərək, ötürülməsini təmin edirdi. Bu baxımdan da simli musiqi alətləri həmin prosesin təzahürü kimi qan yaddaşını fəallaşdıran tərəflərdir ki, həm zahiri, həm də səslənməsi ilə emosional təsir yox, "hal-əhval" düşüncəsi yaradaraq biliyin burdon səs dalğasına köklənməklə dərkinə şərait yaradır. Mövcud olan durumda simli musiqi alətləri biliyin əldə edilməsi və eyni zamanda ötürülməsində cihaz rolunu oynayır. Nümunələrdə izah edilən saz, ud, tar, kamança, simli musiqi alətlərinin səslənməsi, hər hansı bir estetik əhəmiyyətli funksiya daşımır. Əksinə, müəyyən dərəcədə bağlılıq funksiyası daşıyaraq, demək olar ki, rabitə əhəmiyyətini daşıyan rolu icra edir. Eyni zamanda, insan ruhuna təsir edən alətlərin tembri onun mənəvi paklaşmasını da təmin edir.

Ruhi idrak sisteminin dini vektoru – Şərq dünyagörüşünə əsasən musiqi, prosesin ahəngdarlığının təzahürü olaraq hələ erkən dövrlərdə daha yüksək mənada qavranılan substansional mahiyyət kəsb edən elm sahəsi kimi dərk olunurdu. Bu mənadan irəli gələrək ibtidai dövrdən yaranan

musiqi alətlərinə islam dövründə qəti qadağalar qoyulmuşdur. Lakin müəyyən vaxtlarda hətta islamla paralel şəkildə inkişaf edən musiqi və onu təzahür edən alətlər saray mühitində ozan – aşıq sənəti kimi öz inkişafını davam etdirirdi. Bu baxımdan elmi mənbələrə əsaslanaraq "Ozan məscidinin" də olması faktı diqqəti çəkir.

Beləliklə tədqiqatımızın bu bölümündə belə nəticəyə gəlmək olar ki, daxildən gələn və ilahi varlığa qovuşduran, həqiqəti "nurlanma" vasitəsilə əldə etmək, yalnız burdon səsə köklənməklə mənaların dərki olan musiqi vasitəsilə həyata keçirilir. Mənaların dərki nurlanma vasitəsilə əldə edilən biliyin həqiqətə qovuşma, yəni birləşmə sakral aktının əldə edilməsi sayəsində reallaşır.

Ruhi idrak sisteminin bədii ənənə vektorunda – simli musiqi alətlərinin ənənəyə əsaslanaraq düzəldilməməsi və son dövrlər alətlərin istehsalı zamanı yaranan qanun pozuntularından, eyni zamanda, ifaçılıqda yaratdığı problemlər tədqiq edilmişdir. Məlum olmuşdur ki, alətlərin düzəldilməsində yol verilən ciddi nöqsanlar gələcəkdə fəsadlar yaradaraq həm itirilmiş səslərin yaranmasına, eləcə də ifaçılıq sənətində bir sıra həll edilməyən problemləin başlanğıcıdır. Fikrimizcə bədii ənənə bədii dil yox, "hal - əhvalla" bağlı olan düşüncə tərzi hesab olunur.

**1.3. "Simli musiqi alətləri mənəvi mətnin seqmenti kimi (mifoloji aspekt)"** aspektdən tədqiq edilir. Bu yarımbölmədə simli musiqi alətlərin arxaik təfəkkürlə bağlılığı aşkarlanmış, eyni zamanda bir sıra musiqi alətlərin yaranması ilə bağlı mistik məna kəsb edən metaforaların ibtidai insanın təfəkküründə canlanan bədii obrazların dərki kimi qəbul edilməsi izah olunur. Mif musiqi mətninin təfəkkürdə obrazlı canlandırılmasını təmin edir. Bu baxımdan da hesab etmək olar ki, mifin mətnin təfəkkürdə obrazlı şəkildə canlandırılması, musiqi alətlərinə köklənmək sayəsində həyata keçirilirdi. Fikrimizcə saz simli musiqi alətində səsləndirilən ifa vətənpərvərlik, qəhrəmanlıq, kamança yaylı simli musiqi alətində səslənən melodiya insan səsinin, ud simli mizrablı musiqi alətində səslənən musiqi təbiətin ahəngdarlığının təfəkkürdə obrazlı canlanmasını təmin edir.

Ənənənin mənəvi özəyi olan ruhi idrak sisteminin vektorlarını müəyyən etdikdən sonra onun ontoloji aspektlərini müəyyən edib onları aydınlaşdırmağa ehtiyac duyulur.

**1.4. "Azərbaycan simli musiqi alətlərinin ontoloji aspektləri"** tədqiq edilir. Ruhi idrak sisteminin sinkretik aspekti dünyanın bütövlükdə, tamlığın vəhdəti kimi dərk edilməsinə xidmət edir. Bu baxımdan dərketmə prinsipində konseptual məna yükü daşıyan simli musiqi alətləri insan

şüurunun köklənməsinə xidmət edən kodlaşmış mətnin açarı əhəmiyyətini daşıyır. Nəticədə, demək olar ki, "hal-əhval" düşüncəsi yaradan, eyni zamanda mənaların dərkinə xidmət edən simli musiqi alətləri insan şüurunu kökləyərək və onu qanun çərçivəsidə nizama salaraq tarazlıq yaradır.

Silsilə aspekti – həyat silsiləsi dairə formasında movcud olan konseptual mənaya malik və eyni zamanda, dörd bucaqlı həndəsi işarənin təzahür formasıdır. Bu silsilə özündə həm daxilə, həm də xaricə istiqamətlənmiş məna yükünü daşıyır.

Silsilə ideyanın prosesə qovuşmaq vasitəsilə həyata keçirilməsinin rasional təzahür formasıdır. Bu baxımdan ənənəvi mərasimlərin də həyata keçirilməsində həyat dairəsi və yaxud da silsilə, prosesə qovuşmaqla mənaların dərkinə xidmət edir. Simli musiqi alətləri də bu prosesə təkan verən qüvvə olmaqla yanaşı, eyni zamanda mənaların dərkinə xidmət edərək onları sürətləndirən konseptual işarələrdir. Fikrimizcə mövcud olan musiqi alətinin dörd simi, sufilikdə həqiqətə aparan dörd mərhələnin dərki ilə bağlıdır. Şüurun köklənməsini təmin edən musiqi alətləri, eyni zamanda öz ahəngdarlığı ecazkarlığı və tembri ilə prosesin gedişatını qanun çərçivəsində tənzim edir. Məhz musiqi eyni zamanda konseptual məna yükü daşıyan simli musiqi alətləri yer üzündə zamanın qaydaya salınması və dərk edilməsində ahəngdarlıq qanunu çərçivəsində nizam yaradır.

Yeddi ruhi pillə – Şərq dünyagörüşündə, ümumiyyətlə, müsəlman aləmində yeddi rəqəmi kainatın dərk edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan da mənaların açılması və biliyin əldə olunması üçün, yeddi səslə bərabərləşən, yeddi ruhi pillələri "hal – əhvalla", prosesi yaşayaraq dərk etmək mümkündür. Yeddi rəqəmi universal məna daşıyaraq həyat harmoniyasının pillələrlə dərk olunması kimi izah edilir.

Ruhi idrak sisteminin ontoloji aspektlərini müəyyən etdikdən sonra onun vektorlarının aşkarlanması musiqi aləltərini də universal sistem kimi dərk etməyə və başqa nöqteyi nəzərdən işıqlandırmağa zəmin yaradır.

**II Fəsil "Simli musiqi alətləri ənənə sisteminin tərkib hissəsi kimi" adlanır.** Üç yarımbölmədən ibarətdir. **2.1. "Azərbaycan simli musiqi alətlərinin muğam ənənəsində rolu və təkamülü"** – Qeyd edilməlidir ki, bütün simli musiqi alətlər professional alətlər olaraq muğam sahəsi ilə bağlı olmuşdur. Bu da təsadüfi deyil ki, universal və professional sahə əvvəldən bilik sahəsi olmuşdur. Eyni zamanda, danılmaz faktdır ki, ali təfəkkürə malik olan bilik sahəsi əvvəldən muğam fenomeni olub. Mövcud olan fikirdən irəli gələrək demək olar ki, muğam universal biliyin təzahür forması olaraq, sinkretik dildən ayrılıb xüsusi sahəyə

çevrilən təfəkkür tipi kimi qavranılır, ayrıca götürülmüş səs mətni kimi dərk edilir. Muğam daxili aləmlə bağlı olduğu üçün, simli musiqi alətlərin ifasından əldə edilən ruhi biliyin inkişafı sayəsində, mənaların açılması, təsvirlərin canlanması, ornamentlərdə və rənglərin həmahəngliyində isə melodiyaların səslənməsi canlı mətn kimi dərk olunur. Buna görə orta əsr miniatürləri, xalçaları və əlyazmalarının ifa texnikası, rənglərin düzgün uyğunlaşdırılmasına və kompozisiyasının quruluşuna görə “canlı ahəngdarlıq” kimi qavranlırdı. Qeyd etmək lazımdır ki, muğam fenomeni universallıqla bağlı olduğu üçün burada muğam, söz, ifaçı bir vəhdət şəklində cəmləşərək tam mənzərəni yaradır. Hər hansı bir musiqi alətini geniş dinləyici kütləsinə təqdim etmək üçün ifaçı öncə o musiqiyə nüfuz olmalı, onu təkmilləşdirməli, sonra ifa etməlidir. Çünki məhz o halda dinləyici kütləsi onu dərk edə bilər. Bunun üçün ifaçıda ilk növbədə, daxili ruhi proses tələb olunurdu ki, bu da hər instrumental ifaçıya aid deyildir. Muğam ifaçılığında alətlə sinkretik vəhdətdə olan ifaçı inkişafın dinamikasına qoşularaq, eyni zamanda, prosesi təzahür edən vasitə funksiyasını icra edir. Bu baxımdan, daxili aləmdə, ruhi prosesə təkan verən musiqi aləti burdon səsə köklənməklə mənaların dərkinə xidmət edir. Muğam ifaçılığında önəmli mahiyyət kəsb edən simli musiqi alətləri prosesin dərkini, eyni zamanda, mənaların açılmasını şərtləndirir. Prosesə nüfuz olan ifaçı daxildən gələn, ruhi aləmlə bağlı olan səsləri canlandırmaq üçün aləti vasitə seçir. Bu baxımdan alətin mükəmməl səs effekti yaratması vacib amillərdən hesab olunur. Mövcud olan muğam ifaçılarının bir çoxunu qane etməyən səs idealı onu rekonstruksiya etməyə məcbur edir. Bu baxımdan irəli gələrək muğam ifaçılığında Habil Əliyev, Elşən Mansurov, Elnur Əhmədov kimi sənətkarlar öz ifa etdikləri kamança simli musiqi alətində rekonstruksiya işləri görərək, daxili prosesə təkan verən, mənaların açılmasına xidmət edən səsi əldə etmək imkanı qazanmışlar. Tar simli mizrablı musiqi alətinin də pərdələrinin arasındakı məsafə düzgün yerləşmədiyindən itirilmiş səslərin yaranmasına, eyni zamanda da, muğam ifaçılığında ürəyə, qəlbə yatmayan səslərin yaranmasının başlıca səsbəbidir. Mövcud olan problemlərin aradan qaldırılması üçün, fikrimizcə muğam ifaçılığında önəmli mahiyyət kəsb edən simli musiqi alətlərimizin rekonstruksiyasına ehtiyac duyulur.

**2.2. “Qopuz simli musiqi alətinin ozan aşıq ənənəsində əhəmiyyəti” -** Qopuz, həm də saz hər ikisi ruhi dünya ilə bağlı olan simli musiqi alətləridir. Bu baxımdan əvvəldən özünü qopuz aləti kimi təzahür edən ozan sənəti, sonralar öz inkişafını saz simli mizrablı alətinə

vermişdir. Üç simli olan qopuz simli musiqi aləti 9,10, 11 simi olan saz musiqi aləti ilə əvəzlənmişdir. Eyni zamanda, qrifi, çanağı daha da genişlənmiş mükəmməl səs rezonansı yaratmışdır. Alətlərin quruluşunda əsaslı dəyişiklik olsa da, hər iki alət və onları səsləndirən ifaçı, yəni qopuz – saz, eləcə də ozan – aşıq sənəti mahiyyət etibarı ilə eyni funksiyanı icra etmişlər. Ozan həm də aşıq, hər ikisi maarifləndirici əhəmiyyət daşıyaraq, ruhi biliyə köklənərək alətdən əldə etdikləri biliyi kütləyə yayan, ötürən şəxslər olmuşlar. Bu mənada hesab etmək olar ki özündə sinkretik məna daşıyıcısı olan, aşıq – ozan sənət növü müsəlman Şərqinin özünəməxsusluğunun təcəssümüdür.

**2.3. "Azərbaycan simli musiqi alətləri sinkretik mətnin tərkib hissəsi kimi: vizual və poetik ekvivalentlər"** müəyyənləşdirilir. **–** Miniatür sənətində milli musiqimizin ahəng intonasiyaları rəngarəng boyalarla təsvir edilərək, canlı obrazlar yaradır. Bu mənada miniatürlərdə vizual təsvir edilən simli musiqi alətləri (çəqanə, qopuz, tənbur, çəng) ahəngdar dünyanın harmoniyasını yaradan, özünü rənglərlə büruzə verən canlı musiqi mətnləridir.

Xalça ornamentlərində stilizə edilən ornamentli naxışlar ümumbəşəri mədəniyyətin sirrlərini özündə daşıyan "canlı ahəngdarlığın" universal dilidir. Bu mövqedən irəli gələrək demək olar ki, xalçalarda təsvir olunan həndəsi işarələr, simli musiqi alətləri (tar, kamança, ud, saz), eləcə də boyaların artıb azalan dalğavari dinamikaları assosiativ düşüncə vasitəsilə qəbul olunaraq özündə sakral mənaları daşıyan səsli musiqi mətnləridir. Xalça ornamentləri ritmik elementlərdən ibarət səsli naxışlardır.

Musiqi elə bir kamil elm sahəsidir ki, onda olan ahəngdarlıq, melodik ritmik çalarlar, incə intonasiyalar hətta poeziyada da olan fəlsəfi fikirləri açmağa qadirdir. Belə ki, poeziyada olan sözlərdəki məna çalarlarını nə təsvir vasitəsilə, nə də ki, şer vasitəsilə dərk etmək olmur. Bu yalnız Şərq prinsipinə əsaslanan canlı dünyanın təzahürünü əks etdirən, ruhi qavrayışla dərk olunan, düşündürən bir vasitə ilə dərk olunur. Poetik mətnlərdə sözlərlə təsvir edilən simli musiqi alətləri, insana ruhən təkan verən sıçrayışlar yaradır ki, bunların hamısı öz növbəsində ruhi aləmlə bağlı olan prosesi canlandırmış olur. Onu da etiraf etmək lazımdır ki, müasir dövrün insanları məntiqi təfəkkürə əsaslandıqları üçün ruhi prosesdən doğulan və bu proseslə eyniləşən "hal-əhval" dünyasından bir qədər kənarlaşmışlar.

**III Fəsil "Ənənəvi alət mədəniyyəti incəsənət sahəsi kimi" adlanır.** Bu fəsil üç yarımbölmədən ibarətdir. **3.1. "Tembr və dinamika**

**ayin təcrübəsi nöqteyi - nəzərindən".** Tembr – səsin, rəngi, musiqi səsinin əlamətlərindən biri olaraq (səsin yüksəklini, hündürlüyünü və uzunluğunu), hər hansı bir alətin ifasında bu səslərin müxtəlif yüksəkliyi və alçaqlığına görə fərqliliyini ifadə edir. Alətin reqistrində mühüm rolu səs rəngarəngliyi oynayır. Çox vaxt rəngli boya yuxarı reqistrə məxsusdur, tünd, qatı boya isə aşağı reqistrə. Dissertasiya işində nümunəolaraq kamança, tar, saz simli musiqi alətlərinin tembr boyaları izah edilir. Nəticədə rasional düşüncə ilə qəbul olunan səs, öz mahiyyətinə görə irrasional dərk etmə üsulu ilə bağlı olan, birbaşa səsin yüksəkliyi ilə bağlı olmayan tembrlə əlaqəlidir

Tembr səsin rəngidirsə dinamika onun spektorunun rəngarəngliyini artırıb azaldır. Dinamika musqidə səsin hərəkətini artan və azalan (piano və forte) kimi ifadə edir. Dinamika insanın assosiasiv təfəkküründə də mühüm rola malikdir. Belə ki, mövcud olan səs sakitliyi və ucalığı insanın şüurunda müəyyən səs spektorunun ahəngdarlığını yaradaraq ümumi mənzərəni canlandırmış olur.

**3.2. "Ənənəvi simli musiqi alətləri universallıq və millilik rakursunda"** – Universal dilin konseptual işarələri olan simli musiqi alətləri həm Şərq, həm də Qərb mədəniyyətində mövcuddur. Şərq xalqları dilindən, dinindən, irqindən, adət-ənənələrindən, həyat tərzindən, dünyagörüşündən asılı olmayaraq bir mədəniyyət ətrafında cəmləşərək ortaq mənəvi dəyərləri təmsil etmişlər. Bu baxımdan zahiri görkəminə görə bənzər olan alətlər coğrafi iqliminə, düzəldilmə texnologiyasına, konstruksiyasına, quruluşuna, simlərinin sayına əsasən millilik statusu əldə edən doğma və yad kimi səciyyələnir. Dissertasiya işində nümunə kimi təqdim olunan Azərbaycan zəngin musiqi irsinin simasına çevrilən kamança alətinin zahiri görkəmcə bənzəri olan və digər xalqların milli simli musiqi alətləri olan çianuri, gicjak müqayisə edilmişdir. Bu müqayisə nəticəsində məlum olmuşdur ki, ümumbəşəri mədəniyyətin universal dili olan simli musiqi alətləri əvvəldən eyni kökdən qaynaqlandığı üçün bir mədəniyyət ətrafında cəmləşmişlər. Sonradan etnik millətlərə parçalanan xalqların hər birinin öz mədəniyyəti olduğu kimi, simli musiqi alətləri də fərqlənmişdir. Bu baxımdan demək olar ki, zahiri görkəminə görə bənzər olan universal simli musiqi alətləri öz etnik mədəniyyətinə, torpağına, iqlim şəraitinə əsasən millilik statusu əldə etmişdir.

**3.3. "Simli musiqi alətlərimizin inkişaf mühiti: solo, ansambl, orkestr"** – Ənənənin daşıyıcıları, onu varislik yolu ilə nəsildən – nəsilə ötürən muğam ifaçılarımızdır. Zəngin ifaçılıq ənənələrinə malik bu

şəxsiyyətlər Azərbaycan musiqi mədəniyyətinin sütunları hesab olunur. Bu da danılmaz həqiqətdir ki, gələcəyə doğru inamlı addımlamaq üçün özül möhkəm təməl üzərində qurulmalıdır. Muğamın ahəngdar melodiyasında ifaçı öz qəlbinin sehrli səsini eşidərək, daxili aləmlə, ruhi proseslə bağlı olan mənalara ucalır.

İrrasionallıqla bağlı olan və prosesə qovuşmaq vasitəsilə əldə edilən biliyin məna çalarlarını alət vasitəsilə təzahürü solo ifa zamanı aşkarlanır. Sadıqcan, Mirzə Fərəc, Mirzə Mansur, Bəhram Mansurov və digər muğam ifaçıları solo ifaçılıq tarixində əvəzsiz xidmətləri ilə möhür vurmuşlar. Bu sənətkarların muğam ifaçılıq sənətində açdığı yollar çağdaş dövrümüzə qədər gəlib çatmışdır.

Muğam ifaçılıq sənətinin binasının təməl sütunları olan bu sənətkarların yetişdirdiyi tarzənlər ordusu muğam sənət binasını daha da möhkəmləndirdi. Tədqiqat işində solo tar ifaçılarından Qurban Primovun yaradıcılığına müraciət edilmişdir. O, ifası zamanı muğamla vəhdətdə olaraq trans vəziyyətdə əldə etdiyi məna çalarlarını dinləyiciyə çatdırmaq, biliyin zənginliyini açmaq üçün, mükəmməl bacarığı ilə öz musiqi aləti olan tarın tembri vasitəsilə xırda mizrablar, glisando və mordentlərdən istifadə edir. Tarzən muğamımızın yaşaması, onun düzgün və səlis səslənməsi üçün, tar simli mizrablı musiqi alətinin dünya miqyasında tanınması naminə daim çalışmışdır.

Müasir vaxtda ənənəni yaşadan V. Məmmədəliyevin ifaçılıq yaradıcılığına müraciət edilmişdir. Onun şifahi professional muğam ifaçılığında ifaçılıq xüsusiyyətləri vurğulanmışdır. Vamiq Məmmədəliyev də məhs tar ifaçılıq məktəbinin ənənələrini yaşadan sənətkarlarımızdandır. İfaçının yüksək məharətlə səsləndirdiyi mizrablar estetik baxımdan dinləyicidə zərif hisslər oyadır. Onun istər güclü, istərsə də zərif vurğulu mizrabları alətin estetik imkanlarını, onun tarının ifa tembrinin zənginliklərini nümayiş etdirir.

Ənənənin zənginliyini, onun özünəməxsus çalarlarını yaşadan ustad ifaçılarımızdan biri də kaman ustadı Habil Əliyevdir. O, kamança simli yaylı musiqi alətinin renessansı idi. Muğamın zənginliyini, onun kamil bilik sahəsi kimi ahəngdarlığını duyan ifaçı ona donmuş bir abidə kimi deyil, öz təfəkküründən gələn boyalarla rəng qataraq, ənənə sistemi çərçivəsində yenilik gətirmişdir. İfaçının idrak təxəyyülündən keçən məna çalarları, onun ruhi aləmlə əldə etdiyi bilik barmaqlarına hoparaq, vəhdətdə olduğu kamança aləti vasitəsilə dinləyiciyə ötürülür.

Sənətkarın ifası ruhi prosses vasitəsilə insanı başqa aləmə qovuşdurur. Belə ki, zahiri baxışdan sadə görünsə də, daxili zənginliyi ilə əks – səda yaradan sənətkar öz ifası ilə, həmçinin aləti ilə zamanın keçmişindən

obrazlı şəkildə xəbər verir. Burada sənətkarın dil ünsürünü kamança aləti ifadə edir. Bu da təsadüfi deyil ki, Habil sənətindən, onun alətinin ahəngdar tembrindən mənəvi qida alan görkəmli bəstəkar F. Əlizadə "Habil-sayağı" pyesini bəstələmişdir.

Solo ifaçılıqla yanaşı, ansamblda simli musiqi alətlərin ifa imkanları daha da kamil səslənir. Belə ki, "hal-əhval" düşüncəsi ilə hər üç ifaçı (xanəndə, tar, kamança) prosesə qovuşmaqla, o anları birgə yaşayaraq, vəhdət şəklində əldə etdikləri biliyin ötürülməsinə nail olurlar.

Bu iki ənənəvi solo və ansambl ifa tərzi saxlanılmaqla yanaşı, XX əsrdə simli musiqi alətlərimizin ifaçılığında yeni inkişaf mərhələsi açıldı. Zahiri tərəfin üstünlüyü simli musiqi alətlərin səhnə hayatında, orkestrdə inkişafı ilə davam etdirildi. Bu baxımdan ənənə kontekstindən uzaqlaşan simli musiqi alətlər incəsənət formatına keçərək, Avropa sisteminə əsaslanan not ifasına keçməli oldu.

Not sisteminin olması öz növbəsində Xalq Çalğı Alətləri Orkestrinin imkanlarını daha da artıraraq, milli musiqimizin, o cümlədən də, alət mədəniyyətimizin gələcəkdə inkişafına böyük zəmin yaradırdı. Əsası Ü. Hacıbəyli tərəfindən qoyulmuş və bu gün də özündə milli və mədəni dəyərləri yaşadan S. Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri milli musqimizin inkişafında, xüsusən də gənc nəslin ənənə sisteminin əsasında tərbiyələnməsində xüsusi əhəmiyyət daşıyır.

Xalq Çalğı Alətləri Orekstrində simli musiqi alətlərin ahəngi, və tembri özünəməxsusluğu ilə seçilir. Universal mənaları özündə daşıyan və dünya harmoniyasının təzahürü olan bu musiqi alətləri səslənməsinə görə ahəngdarlıq yaradır. Eyni zamanda orkestrdə simli musiqi alətlərin mövqeyini nəzərə alaraq yeni musiqi alətlərin orkestrin tərkibinə salınması, məsələn, Avropa simli musiqi aləti kontrabasın əvəzinə bas kamança, Qazaxıstan Respublikasından gətirilmiş dombra alətinin əvəzinə bas tar və ya fleyta musiqi alətinin əvəzinə ney alətinin salınması fikrimizcə ahəngdarlığın tam mənzərəsinin yaranmasına şərait yaradar.

Fikrimizcə, keçmiş və müasir dövrün dünyagörüşünü özündə əks etdirən milli musiqimizin, eləcə də Ü. Hacıbəyli dühasının varisi olan Xalq Çalğı Alətləri Orkestrinin qarşısında duran problemlərin həlli sayəsində bu ənənənin gələcək nəsillərə varisliklə ötürülməsi sağlam şəkildə həyata keçiriləcək.

Düşünürük ki, ənənənin bərpası soykökümüzə qayıtmaq, milli mədəni dəyərlərimizin qorunması üçün əsas vasitədir. Bununla da təqdim olunan tədqiqat işinin gələcəkdə araşdırılacaq problemlərin həllində yeni

imkanlar yaratması, elmi tədqiqin inkişafında da mühüm əhəmiyyət kəsb etməsinə inanırıq.

Tədqiqatı sona yetirərək belə bir **nəticə**yə gəlmək olar ki:

1. Dissertasiya işində ilk dəfə ənənənin bünövrə əsasını təşkil edən ruhi idrak sisteminə xüsusi diqqət verilmişdir. Bu da musiqini iki mənada substansiya və incəsənət sahəsi kimi öyrənilməsi üçün zəmin yaradır.

2. Öncədən özünü həndəsilərlə, rəqəmlərlə müəyyən edilən konseptual işarələr, sonradan transformasiya edilərək sözün ahəngi ilə, boyalar ilə, səslərlə canlandırılan mənalarda öz əksini tapır.

3. Tutduğumuz mövqedən çıxış edərək – "doğma-yad", varislik və mövcud olan məsələlərlə yanaşı, eyni zamanda, simli musiqi alətlərin tembr spektri, dinamika və s. bu kimi tərəflərə xüsusi diqqət yetirilərək onların əhəmiyyəti izah edilir.

4. Azərbaycan ənənəvi irsinin ayin mərasimlərində səslənən və ənənəvi musiqinin iki əsas qolu – muğam və ozan-aşıq ənənəsində simli musiqi alətlərinin özünəməxsusluğu və ifadə xüsusiyyətləri ilk dəfə mənəvi idrak sisteminin əsasında işıqlandırılır.

5. Ənənəvi alət mədəniyyətinin ilk mərhələsini təfəkkür prinsipinin dramaturgiyasından əldə edilən mənalar əsasında qurulan sistem kimi dərk olunması tədqiqat axtarışının üç əsas mərhələyə bölünməsi ilə şərtlənir. Birinci mərhələdə simli musiqi alətlərinin formalaşmasında əsas faktor kimi daxili proses qabardılır (Universal mahiyyət kəsb edən alətlər). İlk alət kimi insan, dünyanı dərk olunması prosesində, özünü dərk etməyə çalışırdı. Konseptuallıq əvvəlcə insanın öz daxilini, sonra dünyanı dərk etməsi ilə bağlı idi. Mədəniyyətin sonrakı inkişafında əyani (zahiri) tərəfin təsiri güclənir. Bu təsir artdıqca simli musiqi alət mədəniyyətinin ümumdünya, Şərq, etnik, millilik statusları əldə etməsi ilə nəticələnir.

Özünü seçilmiş metodologiya ilə təsdiq edən yeni yanaşma musiqi alətlərinin, xüsusilə öyrəndiyimiz simli musiqi alətlərin dərk edilməsində ənənə və onun qanunları çərçivəsində varislik əsasında inkişafı üçün zəmin yaradır.

**Dissertasiya mövzusu üzrə çap olunmuş məqalələrin siyahısı**

1. “Azərbaycan simli musiqi alətləri ənənəvi irs kontekstində” // AMEA Memarlıq və İncəsənət İnstitutu , “İncəsənət və Mədəniyyət Problemləri” toplusu. № 3 (29). 2009, s. 58-61;

2. “Miniatür sənətinin musiqi mahiyyəti” // “Türkdilli Xalqların Musiqi Alətləri” Beynəlxalq Simpozium. 16-17 dekabr. 2010;

3. “Miniatürlər musiqinin vizual təzahürü kimi” // Musiqi Dünyası 2/47 2011, s. 104-106;

4. “Ümumbəşərilik və millilik kontekstində simli musiqi alətlərimizin formalaşması” // Azərbaycan Milli Konservatoriyası, “Konservatoriya” elmi nəşri № 3 (13), 2011. s. 5-9

5. “Şərq musiqi aləti mədəniyyətində universallıq və millilik nisbəti” // AMEA Akademik Ziya Bünyadov – 90 “Orta Əsrlər Şərqinin Tarixşünaslığı və Mənbəşünaslığı” Beynəlxalq elmi simpozium. 7-8 may, 2012. s. 242-244

6. “Musiqinin insan vücuduna təsir gücü” Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri// ADMİU-nun 90 illiyinə həsr olunmuş XII Beynəlxalq elmi-praktiki konfransın materialları// Bakı-2013, s.54 (tezis)

7. “Milli Musiki Aletlerimizin Tarihsel Gelişim Yolu ve Evrenselliği Üzerine” // Kultur Evreni dergisi – 2013, s. 63-66

8. “Kamança yaylı simli musiqi aləti ənənə və müasirlik rakursunda” // Musiqi dünyası jurnalı № 2 (59) 2014

**Егяна Зираддин кызы Байрамлы**

# АЗЕРБАЙДЖАНСКИЕ СТРУННЫЕ МУЗЫКАЛЬНЫЕ ИНСТРУМЕНТЫ КАК СОСТАВНАЯ ЧАСТЬ НАЦИОНАЛЬНОЙ ТРАДИЦИОННОЙ КУЛЬТУРЫ

## РЕЗЮМЕ

Основная цель диссертации - изучение азербайджанского струнного музыкального инструментария как части национальной традиционной культуры – предполагала рассмотрение ряда вопросов, решение которых проводилось с учетом восточного принципа познания и связанного с ним целостного мировосприятия. Поставленные цель и задачи определили структуру работы, состоящую из введения, трех глав, заключения, списка использованной литературы и приложения.

В первой главе **«Традиция как основа культурного наследия Азербайджана»** - рассматривается сущностная сторона традиции как многовекторной системы духовного познания. В четырех подразделах главы освещается специфика духовного познания, его концептуальное содержание выражаемое геометрией числа. Свое наглядное подтверждение оно получает в форме и составных частях ранних струнных инструментов, например в форме гопуза и его последующих модификациях – саза, уда и т.д.

Содержание второй главы **«Струнные музыкальные инструменты как часть традиционной системы»** и ее трех подразделов составляет освещение обусловленности возникновения и развития струнного музыкального инструментария профессиональными ветвями традиционной музыкальной культуры – мугамной и озано-ашыгской, в рамках которых струнные инструменты изначально осмысливаются как акустические приборы-резонаторы, транслирующие динамику внутреннего духовного процесса, нацеленного на озаренность Истиной. Изложенное, подтверждается фактом дальнейшего уподобления четырех струн музыкального инструмента четырем стадиям суфийского пути познания.

В свете выявленной особенности духовного познания рассматривается такое специфическое свойство трансляции и восприятия звука как синкретичность, чем объясняется обнаружение визуальных

и поэтических эквивалентов единого сакрального акустического пространства.

Третья глава **«Традиционная инструментальная культура как сфера искусства»** также включает три подраздела. В содержании главы особо отмечается активизация роли внешних факторов восприятия, оказывающих встречное воздействие на внутренний мир исполнителя, что со временем выражается как в обогащенном музыкальном содержании, так и востребованной им необходимости реконструкции музыкальных инструментов.

Настоящее исследование в целом создает важную предпосылку для дальнейшего развития традиционного музыкального инструментария на базе преемственности.

В **заключении** подводится итог всей диссертационной работы.

**Yegana Ziraddin qizi Bayramli**

# AZERBAIJAN STRINGED MUSICAL INSTRUMENTS AS PART OF THE NATIONAL TRADITIONAL CULTURE

## SUMMARY

The main purpose of the thesis – the study of Azerbaijan stringed musical instruments as a part of the national traditional culture – supposed the consideration of a series of questions the solution of which has been carried out taking into consideration oriental principle of cognition and integral world outlook connected with it. The purpose and tasks put forward have determined the structure of the introduction, three chapters, the conclusion, the list of literature and supplement.

In the first chapter **"Tradition as a basis of cultural heritage of Azerbaijan"** there is considered the essential side of tradition as many-vectorial system of spiritual cognition. Specific character of spiritual cognition, its conceptual content expressed by geometry of the number is thrown cast in four subsections of the chapter. It is obviously confirmed in the form and integral parts of early stringed instruments, for example in the form of gopuz and its following modifications – saz, ud, etc.

The content of the second chapter **"Stringed musical instruments as a part of traditional system"** and its three subsections makes up the interpretation of the appearance and development of stringed instruments by professional branches of traditional musical culture – mugam and ashug-ozan with in the frames of which stringed instruments are initially perceived as acoustic instruments-resonators translating the dynamics of the inner spiritual process aimed at the Truth. The above-stated is confirmed by the fact of further assimilation of four musical instruments with four stages of sufi way of cognition.

In the light of the revealed peculiarity of spiritual cognition there is considered such a specific feature of translation and perception of the sound as syncretism which explains the discovery of visual and poetic equivalents of single sacral acoustic space.

The third chapter **"Traditional instrumental culture as a sphere of art"** also consists of three subsections. The activization of the role of external factors having contrary influence upon the interior world of the

performer which is in due course expressed in enriched musical content as well as the necessity of reconstruction of musical instruments.

The present investigation as a whole creates important prerequisite for further development of traditional musical instruments on the basis of continuity.

İn the **conclusion** there is summarized the result of the thesis.

Çapa imzalanıb: 15.05.2014
Format: 60x84 1/16. Tiraj: 100.

“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərкəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ им. УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ЕГЯНА ЗИРАДДИН кызы БАЙРАМЛЫ**

# АЗЕРБАЙДЖАНСКИЕ СТРУННЫЕ МУЗЫКАЛЬНЫЕ ИНСТРУМЕНТЫ КАК СОСТАВНАЯ ЧАСТЬ НАЦИОНАЛЬНОЙ ТРАДИЦИОННОЙ КУЛЬТУРЫ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**БАКУ – 2014**